AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Kapital Bank
BİRİNCİ BANK

# Respublika Fənn Olimpiadaları

Rayon (Şəhər) mərhələsi

# Tarix

Ad ____________________

Soyad ____________________

Məktəb ____________________

1. İmtahan müddəti 90 dəqiqədir.
2. 4 səhv cavab 1 düz cavabı aparır.
3. Hər sual 4 bal ilə qiymətləndirilir.
4. Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
5. Rayon (Şəhər) mərhələsinin nəticələrini www.olimpiada.edu.az saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**

# 10-cu sinif

04.02.2018

**1. II Dünya müharibəsi gedişində alman işğallarının ardıcıllığını müəyyən edin:**
1. Danimarka
2. Norveç
3. Fransa
4. Hollandiya

A) 1, 4, 2, 3
B) 2, 1, 3, 4
C) 4, 3, 2, 1
D) 2, 3, 4, 1
E) 1, 2, 4, 3

**2. Qeyd edilənlərdən neçəsi səhvdir:**
- XVII əsrdə Şotlandiya parlamenti kovenant adlanırdı,
- İngiltərə kralı III Vilhelmin dövründə Böyük Britaniya krallığı yarandı,
- İngiltərədə respublika dövründə dini mərasimlər üzrə akt qəbul edildi,
- İrlandiya parlamenti kovenant II Karlı öz kralı elan etmişdi,
- 1689-cu ildə qəbul edilmiş "Bill"ə əsasən, İngiltərədə hökumət parlamentdə çoxluq qazanan palatanın üzvlərindən təşkil olunurdu.

A) 1-i B) 2-si C) 3-ü D) 4-ü E) 5-i

**3. "Boston çay məclisi"nin nəticələrinə aiddir:**
A) Kolonistlərin qərbə köçməsinə icazə verildi.
B) Çay, gömrük haqqı ödənilməklə əhaliyə satıldı.
C) Filadelfiyada Konqress çağırıldı.
D) "Azadlıq oğulları" adlı gizli təşkilat yaradıldı.
E) Şəhər əhalisinə dəniz ticarəti ilə məşğul olmaq qadağan edildi.

**4. 1945-ci ildə İngiltərədə hakimiyyətə gələn leyboristlərin müstəqillik verdiyi ərazilərdən deyil:**
A) Seylon
B) Hindistan
C) Malayya
D) Birma
E) İordaniya

**5. Çexoslavakiyada 1968-ci ildə hakimiyyətə gətirildi:**
A) A.Dubçek
B) Q.Qusak
C) İ. Nad
D) D.Yanayev
E) D. Kunayev

**6. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. Əfqanıstan konstitusiyasının qəbulu
2. Əfqanıstan Respublikasının yaranması
3. Banqladeş dövlətinin yaranması
4. Pakistanda ilk dəfə parlament seçkilərinin keçirilməsi
A) 1, 4, 2, 3
B) 3, 2, 1, 4
C) 4, 3, 2, 1
D) 2, 3, 4, 1
E) 1, 4, 3, 2

**7. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. Azərbaycan Respublikasının BMT TŞ-nın qeyri-daimi üzvü seçilməsi
2. Xəzəryanı ölkələrin dövlət başçılarının Həştərxan sammiti
3. Elmin inkişafı üzrə Milli Strategiya və Dövlət Proqramının qəbulu
4. "Asan xidmət" mərkəzlərinin yaradılması
5. "XXI əsrin müqaviləsi"nin imzalanması
A) 5, 4, 2, 3, 1 B) 1, 3, 5, 2, 4 C) 2, 4, 5, 1, 3
D) 3, 1, 4, 5, 2 E) 4, 5, 1, 2, 3

**8. Bakı xanlığının yaradıcısına aiddir:**
A) Ticarət məqsədilə gəmilərin inşası üçün tədbirlər həyata keçirməsi
B) Quba xanlığından asılı olması
C) Rusiyanın himayəsinə keçməsi
D) Neft və duz hasilatını inhisara alması
E) Bakı qalasını möhkəmləndirmək üçün tədbirlərin görülməsi

**9. Mənbədəki məlumata əsasən, ərazini və ili müəyyən edin:**
*Burada "10 min müsəlman (azərbaycanlı) və ancaq 3 min erməni ailəsi var idi. Ermənilər rus qoşununa hər cür yardım göstərirdilər...Onlar xəyanət edərək qalanın şimal darvazalarını açdılar və rus qoşununu qalaya buraxdılar".*
A) Qarabağ-1806
B) Gəncə-1804
C) Naxçıvan-1827
D) İrəvan-1827
E) Təbriz-1827

**10. İlham Əliyevin birinci Prezidentliyi dövrünə aid deyil:**
1. Respublikadakı bütün çadır şəhərciklərinin ləğvi
2. BTC neft kəmərinin istifadəyə verilməsi
3. Qəbələdə Beynəlxalq Musiqi festivalının keçirilməyə başlanması
4. Dövlət Bayrağı Meydanının açılışı
5. Təhsil haqqında yeni qanunun qəbulu
A) 3, 4, 5
B) 1, 3, 5
C) 2, 4
D) 1, 2, 4, 5
E) 1, 5

**11. Prezident İlham Əliyevin fəaliyyətinə aid deyil:**
A) BTQ dəmiryol xəttinin istifadəyə verilməsi
B) Milli ensiklopediyanın nəşri
C) Latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi
D) 2006-cı ildə ABŞ-a ilk rəsmi səfəri
E) Təhsil haqqında yeni qanunun qəbulu

**12. Maaflar üçün səciyyəvi deyil:**
A) Xan qoşununun əsasını təşkil edirdilər.
B) Vəzifələri irsi keçirdi.
C) İmtiyazlı təbəqə idilər.
D) Mükəlləfiyyətlərdən azad idilər.
E) Asayiş qoruyucusu idilər.

**13. AXC hökumətinin sosial tədbirlərindən deyil:**
A) Sahibkarlar parlamentin razılığı olmadan fəhlələri kütləvi şəkildə işdən çıxara bilməzdi
B) Müəssisələrdə 8 saatlıq iş gününün tətbiqinə diqqət yetirilirdi
C) Gecə növbələrinin ləğvinə diqqət yönəldilirdi
D) Qadınlar işləyən müəssisələrdə körpələr evi açılması tələb edilirdi
E) 1919-cu ilin əvvəllərindən çoxuşaqlı fəhlələrə əlavə vəsait verilməsinə başlandı

**14. "Uzunmüddətli parlament"in tədbirlərindən deyil:**
A) Feodal töycüsünün ləğvi
B) İcmalar palatasının beş deputatının həbsi
C) Nazirlərin məhkəməyə verilməsi
D) Şotlandiya ilə ittifaq bağlanması
E) Kilsə məhkəməsinin dünyəvi şəxsləri mühakimə etmək səlahiyyətinin ləğvi

**15. AXC-nin mədəni tədbirlərindən deyil:**
A) "Azərbaycan" qəzeti hər gün beş dildə nəşr edilmişdi.
B) Gəmiqayırma və təyyarə düzəldilməsi ixtisaslarına yiyələnmək üçün gənclər xaricdə oxumağa göndərilmişdi.
C) BDU-nun açılması haqqında qanun qəbul edilmişdi.

D) Qazax Müəllimlər Seminariyası təşkil edilmişdi.
E) İlk milli kitabxana fəaliyyətə başlamışdı.

**16. Qeyd edilənlərdən neçəsi XVII əsrin 80-ci illərinə aiddir:**
- Nerçinsk müqaviləsinə əsasən, Lena çayı sərhəd oldu,
- 1682-ci ildə I Pyotr Rusiyada çar seçildi,
- Baxçasaray sülhünə əsasən, Dunay çayı sərhəd oldu,
- Fransada iqtisadi böhran inqilabi şəraiti kəskinləşdirdi,
- Yorktaun yaxınlığında ingilis qoşunu təslim oldu.

A) 1-i B) 2-si C) 3-ü D) 4-ü E) 5-i

**17. Sultanbud döyüşünün nəticəsi:**
A) Ağqoyunlular uğur qazana bilmədi
B) Osmanlılar qalib gəldi
C) Rusiya qoşunu məğlub edildi
D) M.Aminin başçılıq etdiyi üsyançılar qalib gəldi
E) Səfəvilər üsyançıları məğlub etdi

**18. A.Məhəmməd şah Qacarın Azərbaycana yürüşü zamanı Kəlbəli xan hədiyyələrlə onun hüzuruna gəldi. Şah hədiyyələri qəbul etsə də, onu həbs etdirdi. Buna səbəb nə idi?**
A) Kəlbəli xanın sui-qəsd planı hazırlaması
B) Kəlbəli xanın rus qoşunu ilə əlaqə saxladığını bilməsi
C) Kəlbəli xanın üsyan qaldırmaq planı olması
D) Kəlbəli xanın İrəvanın müdafiəçilərinə kömək göndərməsi
E) Kəlbəli xanın müdafiə hazırlıqlarına başlaması

**19. 1752-ci ildə dostluq əlaqələri yaratmaq üçün Osmanlı dövlətinə elçi göndərmiş xanlıq:**
A) Qarabağ
B) İrəvan
C) Naxçıvan
D) Gəncə
E) Quba

**20. Azərbaycan Rusiya tərəfindən işğal edildikdən sonra hansı təsərrüfat sahəsində iltizam sistemi daha tez ləğv edildi?**
A) Mis sənayesi
B) Abşeron duz mədənləri
C) Naxçıvan duz mədənləri
D) Neft mədənləri
E) Balıqçılıq

**21. XIX əsrin ortalarında Azərbaycanın taxılçılıq təsərrüfatına aid deyil:**
1. İstehsal olunan məhsul ölkə əhalisinin tələbatını tam ödəyirdi
2. Rusiyanın regiondakı qoşunu qismən Azərbaycan, əsasən də Rusiyadan gətirilən taxıl hesabına ödənilirdi
3. Rusiyanın regiondakı qoşunu əsasən Azərbaycan, qismən də Rusiyadan gətirilən taxıl hesabına ödənilirdi
4. Yelizavetpol quberniyası Azərbaycanın taxıl anbarı idi
5. Muzdlu əmək tətbiq olunurdu
6. Lənkəran və Şəki qəzaları çəltikçilik üzrə ixtisaslaşmışdı

A) 1, 3, 5, 6
B) 2, 3
C) 2, 4, 6
D) 3, 5, 6
E) 1, 4

**22. I Dünya müharibəsi ərəfəsində Azərbaycan neft sənayesi üçün səciyyəvi deyil:**

A) Quba, Şamaxı, Cavad qəzalarında neft çıxarılmasına başlandı
B) Neftin 4/5 hissəsi köhnə mühərriklərlə çıxarılırdı
C) Neftin qiyməti beş dəfə bahalaşmışdı
D) "Şell" şirkəti də Azərbaycan neft sənayesinə nüfuz etdi
E) M.Nağıyevin şirkəti 20 ən iri neft şirkəti sırasına daxil idi

**23. Uyğunluğu müəyyən edin:**

| | |
|---|---|
| 1. M.Ə.Qalib | a. Qazax |
| 2. M.Kəminə | b. Türkmən |
| 3. A.Kunanbayev | c. Tatar |
| | d. Özbək |
| | e. Hindistan |

A) 1-c; 2-d; 3-b
B) 1-b; 2-a; 3-c
C) 1-e; 2-b; 3-a
D) 1-a; 2-b; 3-e
E) 1-e; 2-d; 3-a

**24. XX əsrin əvvəllərində sənayenin ümumi inkişafına görə dövlətlərin düzgün ardıcıllığını müəyyən edin:**

A) ABŞ, Almaniya, İngiltərə, Fransa
B) Almaniya, ABŞ, İngiltərə, Fransa
C) ABŞ, Almaniya, Fransa, İngiltərə
D) ABŞ, Fransa, Almaniya, İngiltərə
E) Almaniya, Fransa, ABŞ, İngiltərə

**25. Hökmdarları hakimiyyətdə olma müddətlərinə görə azdan çoxa doğru düzün:**

a. İranzu
b. Astiaq
c. Fəzl ibn Məhəmməd
d. I Təhmasib
e. I İsmayıl

A) a, b, c, e, d
B) c, d, b, a, e
C) a, e, b, c, d
D) e, d, c, a, b
E) b, a, e, c, d